ARTİ / APREL / 2022

ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Beynəlxalq Təhsil İcmalı

## İçindəkilər

**02.** Avropada ali təhsildə ədalətlilik və inklüzivliyə doğru

**06.** Motivasiyada maneələri aradan qaldırmaq məqsədilə Müəllimin peşəkar inkişafı (MPİ) proqramlarının hazırlanması: 10 strategiya

**10.** Məktəbəqədər Təhsildə Müəllimlərin Sorğusu (STEPP) layihəsi

**14.** Təhsildə Ölçmə və Qiymətləndirmə: Bolqarıstan



# Avropada ali təhsildə ədalətlilik və inklüzivliyə doğru

"İnklüzivlik və ədalətlilik" Avropa Təhsil sektoru baxımından Avropa İttifaqı daxilində əsas dəyərlərdən biri hesab olunur. Avropa bütün vətəndaşlara Avropa ali təhsil sistemi əsasında məqsədlərinə nail olmaq üçün bərabər imkanlar təqdim etməyi hədəfləyir. Bu vəzifə Avropadakı Təhsil sistemlərinin inklüziv və bərabərhüquqlu təhsili təmin etmək üçün mövcud gözləntilərini ümumiləşdirir. Bu Avropa İttifaqına daxil olan ölkələrin qarşısında məqsəd olaraq hələ də aktuallığını saxlayır.

Avropa Təhsil və Mədəniyyət Agentliyi tərəfindən Avropa İttifaqına daxil olan ölkələrin ali təhsil müəssisələrində "İnklüzivlik və ədalətlilik" siyasətinə dair hesabat hazırlanmışdır. Bu hesabatda müxtəlif Avropa ölkələrinin təhsil sahəsində həyata keçirilən prinsiplər və təlimatlara dair göstəricilər öz əksini tapır.

Ali təhsil strategiyaları sosial tədbirlərin institusional səviyyədə, Avropa Ali Təhsil Məkanı (AATM) və Aİ səviyyəsində təhsil strategiyaları üçün əsas olması ilə bağlı prinsipi rəhbər tutur. Bu prinsip altında 2 əsas təlimat mövcuddur:

- ali təhsil üzrə sosial tədbirlərin konkret hədəflərə uyğunlaşdırılması;
- sosial tərəfdaşlar kimi ali təhsil orqanları, işçi heyəti, təhsil nümayəndələri və dövlət orqanları arasında genişmiqyaslı dialoq.

Prinsiplər əsasında müəyyən edilir ki, dövlətin təhsil siyasəti ali təhsil müəssisələrinə ictimai məsuliyyəti yerinə yetirmək üçün fərdi strategiyalar hazırlamağa imkan verməlidir. Bu mövzuda təqdim olunan təlimatlar bunlardır:

- inzibati və hüquqi tənzimləmələrlə kifayət qədər çevikliyə imkan vermək;
- dövlət orqanları tərəfindən təhsil müəssisələrində qeyri-formal və ya qeyri-rəsmi təlimlərin tanınmasını təşviq etmək.

Bundan əlavə, Avropa təhsil sistemlərinin nə dərəcədə inkişaf əldə etdiyi təqdimat lövhəsi, prinsiplər və təlimatlar əsasında aşağıda qeyd olunan meyarlara uyğun ümumiləşdirilir:

- 1-ci mərhələdə bütün ali təhsil müəssisələri tərəfindən qiyabi təhsil, distant təhsil və qarışıq təhsil proqramlarına icazə verilir;
- Namizədlər bütün ali təhsil müəssisələrinə aid olan qeyri-formal və ya qeyri-rəsmi ali təhsilə daxil ola bilərlər;
- Əvvəlki qeyri-formal və ya qeyri-rəsmi təhsil bütün ali təhsil müəssisələrində təhsil proqramının yerinə yetirilməsinə uyğun hesablanır;
- Keyfiyyət təminatı agentlikəri ali təhsildə əvvəlki qeyri-formal və ya qeyri-rəsmi təhsilin tanınması məsələsini həll etməlidir.

Hesabatda yer alan təqdimat lövhəsi fərqli nəticələri göstərir. Belə ki, sadalanan bu meyarlara yalnız 4 Avropa ölkəsinin təhsil sistemləri (Belçika - Fransız İcması, İspaniya, İtaliya və Finlandiya) yüksək nəticə göstərmişdir. Digər ölkələrin isə 3 meyar üzrə zəif göstəricisi qeydə alınmışdır. Hesabatda yer alan təqdimat lövhəsinə əsasən Avropa ali təhsil müəssisələrində çevik təhsil proqramları mövcud olsa da, müvafiq qaydalar hələ tam çevikliyə malik deyildir.

Ömürboyu təhsil təlim-tədris prosesinin bütün səviyyələrində ardıcıl siyasətlərin işlənib hazırlanması yolu ilə təhsil sistemlərinin təkmilləşdirilmiş şəkildə təşkil edilməsi prinsipini təqdim edir. Bu mövzuda 3 təlimat mövcuddur:

1.Müxtəliflik;
2.Ədalətlilik;
3.İnklüzivlik;

Bu əsasda qeyd olunmuş təlimatlar müəllim hazırlığı proqramının bir hissəsi olmalıdır. Sosial siyasətlər mövcud və eyni zamanda hazırkı tələbələri dəstəkləməlidir. Bütün müvafiq siyasət sahələri daxil olmaqla, təhsil səviyyələrində sinerji yaratmalıdır. Hesabatda yer alan təqdimat lövhəsinə əsasən, Malta və İspaniya ömürboyu təhsil sistemlərini qəbul etmiş yeganə ölkələrdir.

Ali təhsil üzrə sosial tədbirlərdə təkmilləşmə prosesini əvvəlcədən müşahidə etmək üçün yerinə yetirilməli şərtlərdən biri mövcud prinsiplərə əsaslanmalıdır. Bu mövzu ilə bağlı 3 təlimat verilmişdir.

Beynəlxalq Təhsil İcmalı
APREL 2022



- 1-ci qurumlar səmərəli siyasətlər hazırlamaq üçün davamlı olaraq milli məlumatları toplamalıdırlar;
- 2-ci məlumatın beynəlxalq səviyyədə müqayisəliliyini təmin etmək üçün toplanmış məlumatlar sosial tədbirlərə uyğun olmalıdır;
- 3-cü isə ali təhsil müəssisələri əlavə tədqiqatlar, sorğular və təhlillər aparmaqla toplanmış məlumatları tamamlaya bilər.

Hesabatda aşağıda qeyd olunan meyarlara əsasən məlumatlar toplanmışdır.

1. Təhsil aldığı müddətdə və ya məzun olduqda ən az bir tələbənin xarakteristikasına nəzarət edilir. Bu meyar üçün inzibati məlumatlar nəzərə alınır.
2. Tələbə qruplarının məzun dərəcə göstəriciləri aydınlaşdırılır.
3. Birinci ilin ilk dövrünün (birinci yarım il) yekun göstəricilərinə dair məlumatlar sərəncam vermək hüquqi olan (direktiv) orqanlar tərəfindən əldə edilə bilər.

Təqdimat lövhəsində göstərilir ki, Avropa ölkələri bu meyarlar üzrə ümumi 152 baldan 97 bal toplayıblar. Bu da onların bu göstərici üzrə daha qabaqcıl siyahıda olduğunu göstərir.

"Təlimat və məsləhətlər" dövlət orqanlarının ali təhsil müəssisələrinə həm qeydiyyatdan keçmiş, həm də potensial tələbələr üçün faydalı təlimat və məsləhətlərin verilməsini təmin edən siyasətlərin işlənib hazırlanmasını tələb etməsi prinsipini rəhbər tutur. Bu mövzu ilə bağlı 3 təlimat var:

- səlahiyyətli orqanlar əməkdaşlıq üçün əlverişli şərait yaratmalı;
- təhsil müəssisələri fiziki və psixoloji sağlamlıq problemləri olan tələbələrə xüsusi şərait yaratmalı;
- ombudsman yaradılmalıdır.

Hesabatda aşağıda qeyd olunan meyarlara uyğun məlumatları ümumiləşdirmək ölkələrin ali təhsil müəssisələrində psixoloji xidmətlərin əlçatanlığı üçün nə dərəcədə məsuliyyət daşıdığını əyani şəkildə göstərir:

- Qeydiyyatdan keçmiş tələbələr üçün psixoloji xidmətləri göstərmək üçün qanuni tələb;
- Spesifik xüsusiyyətləri olan tələbələrə yönəlmiş psixoloji xidmətlər;
- Psixoloji xidmətlərin keyfiyyət təminatı;
- Ali təhsildə hümanizmlə bağlı münaqişələrdə vasitəçiliyin rolu olan dövlət qurumlarının (müəssisələrinin) olması.

Təqdimat lövhəsində göstərilir ki, yalnız 2 ölkə - Fransa və Estoniya müəyyən edilmiş meyarlara cavab verir. Bundan əlavə hesabatda iştirak edən ölkələrin 152 bal üzərindən 76 topladığı məlum olmuşdur.

"Maliyyələşdirmə prinsipi"-nə əsasən, dövlət orqanları ali təhsil müəssisələrini davamlı və münasib maliyyə vəsaiti ilə təmin etməyi tələb edir. Bu tələb onlar üçün adekvat potensialın yaradılmasına imkan verəcəkdir. Bu iki təlimat ali təhsil müəssisələri daxilində sosial tədbirlər ilə bağlı strateji məqsədlərə nail olmaq üçün müəssisələrə yardım etməklə ali təhsili maliyyələşdirən sistemlərdir. Bundan əlavə, maliyyə dəstəyi bütün tələbələr üçün universal şəkildə tətbiq olunmalıdır. Bu baxımdan, hesabatda aşağıda qeyd olunan meyarlara uyğun məlumatlar ümumiləşdirilib.

Dövlət maliyyələşməsi 2013-cü ildən 2018-ci ilə qədər olan dövrdə dövlətin maliyyələşdirilməsinin sabit qalması və ya genişlənməsi şərti ilə ali təhsilə qəbulun artması, inkişafı və ya təhsilin başa çatdırılması sahəsində hədəf göstəricilərə nail olan ali təhsil müəssisələrinə verilir:

- Tələbə kontingentinin 50%-dən çoxuna ehtiyac əsaslı və ya universal qrantlar verilir;
- İlk dövrdəki tələbələrin 10-49%-nə tələbata əsaslanan qrantlar verilir;
- Yaşayış, nəqliyyat və yemək xərclərinə görə ən azı 2-si üçün dəstək verilir.

Təqdimat lövhəsində göstərilir ki, ölkələr bu meyarlar üzrə 152 baldan 73 bal toplaya bilmişlər.

“İnstitusional vəzifə və kadr hazırlığı” prinsipi. Burada qeyd edilir ki, dövlət orqanları tələbələrin və işçilərin ehtiyaclarına cavab verməklə ali təhsil müəssisələrinin imkanlarını gücləndirməyi hədəfləyir. 1-ci bu təlimatlar ali təhsil müəssisələrinin peşəkar təlimləri təkmilləşdirmək üçün dövlət orqanları tərəfindən səlahiyyət verilməsini nəzərdə tutur. 2-ci keyfiyyəti nəzərdə tutan sosial tədbirləri, bərabərliyi, müxtəlifliyi və inklüzivliyi əks etdirməlidir. Bu əsasda aşağıdakı meyarlar qiymətləndirilib:

- Ali təhsil müəssisələrində etibarlılıq təlimi üzrə tələb və ya tövsiyə təklif etmək;
- Təlimə dövlət orqanları tərəfindən maliyyə dəstəyi;
- Digər orqanların maliyyə dəstəyi;
- Keyfiyyət təminatında ədalətlilik və inklüzivliyin nəzərə alınması.

Təqdimat lövhəsində göstərilir ki, bu meyarlar üzrə Avropada böyük müxtəliflik var. Belə ki, ölkələrin nəticələri 152 baldan 51 bal təşkil edir. Bu da nəticə olaraq layihəyə diqqət yetirilməsini vurğulayır.

“Hərəkət (mobillik)” prinsipi göstərir ki, müxtəlifliyi, inklüzivliyi və ədalətliliyi inkişaf etdirmək üçün ali təhsil mobilliyinin yaradılmasını və həyata keçirilməsini tələb edir. Bu prinsipə daxil olan təlimatlar bunlardır:

- tələbələr və işçi heyəti üçün təlim imkanlarına bərabər çıxış təmin edilməlidir;
- təhsil müəssisələri üçün informasiya-kommunikasiya texnologiyalarından istifadə sadələşdirilməlidir.

Bu əsasda aşağıdakı meyarlar ölkələrin mobillik proqramlarına əlçatanlığı təmin edib-etmədiyini qiymətləndirir:

- konkret xüsusiyyətlərə diqqət yetirməklə milli mobillik siyasəti;
- dərəcə və kredit mobillik qrantlarının transferi;
- ali təhsil müəssisələrinə yeni daxil olan və ya məzun olan tələbələr üçün bütün ali təhsil müəssisələrində









bələdçilik, mentorluq xidmətləri, subsidiyalı yaşayış yeri, yemək/yeməkxanalar;
- səlahiyyətli orqanların ali təhsil müəssisələrinə tədris və təlimdə yeni texnologiyalardan istifadə ilə bağlı tövsiyələri.

Təqdimat lövhəsi göstərir ki, 4 ölkə (Albaniya, Bosniya və Herseqovina, Monteneqro və Serbiya) bu meyarlar üzrə hədəflərdə heç bir irəliləyiş əldə etməyib, ümumi əldə olunmuş bal 152 üzərindən 68-dir.

“İctimaiyyətin iştirakı” ali təhsil müəssisələrinin inklüzivliyi, müxtəlifliyi və bərabərliyi təşviq etdiyi prinsipi təqdim edir. Bu mövzu üzrə təlimatlardan aydın olur ki, ictimaiyyətin maraqlı tərəfləri ali təhsil müəssisələrinin faktorlarını əsaslı şəkildə cəlb etmək bacarığını tələb edir.

“Siyasət dialoqu” mövzusu dövlət orqanlarının və müvafiq maraqlı tərəfləri prinsip və təlimatları necə həyata keçirməklə bağlı müzakirəyə daxil etməli olduğu prinsipini təbliğ edir. Bu prinsipə əsasən, inklüzivlik istiqamətində irəliləyişi asanlaşdırmaq üçün həmyaşıdların dəstəyi və təcrübə mübadiləsi çox mühimdir. Lakin ölkələrin əksəriyyəti bu prinsipə cavab verməmişdir.

*Mənbə: European Commission/EACEA/Eurydice, 2022. Towards equity and inclusion in higher education in Europe. Eurydice report. Luxembourg: Publications Office of the European Union.*

# Motivasiyada maneələri aradan qaldırmaq məqsədilə Müəllimin peşəkar inkişafı (MPİ) proqramlarının hazırlanması: 10 strategiya

Məqalədə bildirilir ki, dəyişiklik və inkişaf üçün həvəsləndirmə amilləri (motivasiya) tapmaq çətindir. Bu, xüsusilə insanların eyni rejimdə, eyni şəraitdə fəaliyyət göstərmək, yenilik etmək üçün kifayət qədər dəstəklənmədiyi iş mühitində daha qabarıq özünü büruzə verir. Məlumdur ki, motivasiya (həvəsləndirmə) müəllimlərdə bir sıra peşə bacarıqlarının və vərdişlərinin formalaşmasına şərait yaradır. Lakin Müəllimin peşə inkişafı (MPİ) proqramları vasitəsilə bu bacarıqlara yiyələndikdən sonra belə həmin bacarıqları tətbiq etmək üçün həvəsləndirici mühitin olmaması da müəyyən çətinlik yarada bilir. Bunun səbəbi ondan ibarətdir ki, müəllimlər, adətən, həddindən artıq işləyirlər, ancaq dəstəklənmir və tanınmırlar. COVID-19 pandemiyası müəllimlərin üzərinə düşən tədris yükünü daha da artırmışdır. Çünki onlar şagirdlərin psixososial ehtiyaclarına, sağlamlıq və rifahına diqqət yetirməklə yanaşı, məsafədən təhsil, təkmilləşdirici təhsil kimi problemləri də idarə edirlər. Bu baxımdan müəllimlərin öyrənmə problemlərini azaltmağa kömək edən və şagirdlərinin differensiallaşdırılmış öyrənmə ehtiyaclarını qarşılayan Müəllimin peşə inkişafına (MPİ) ehtiyac vardır.

Müəllimin peşə inkişafı **(MPİ)** proqramları tərtib edilərkən və həyata keçirilərkən insan psixologiyasını və həvəsləndirməyə (motivasiya) mane olan amillər nəzərə alınmalıdır. Bu inkişaf proqramları müəllimlərin iştirakını, məlumatları mənimsəməsini, yeni bacarıqların tətbiqi zamanı üzləşə biləcəyi motivasiya maneələrinin müəyyən edilməsini və aradan qaldırılmasını tələb edir.

Məqalədə Keniya, Peru, Yəmən və Zambiyadan əldə edilmiş empirik məlumatlardan və ölkə təcrübələrindən irəli gələn motivasiya maneələrini aradan qaldırmaq üçün 3 mərhələdən ibarət 10 strategiya öz əksini tapmışdır.



**1-ci mərhələ: Müəllimin peşə inkişafı (MPİ) proqramlarında iştirakı**

**1-ci strategiya**

**Müəllimləri bu sahədə peşə ehtiyaclarına və sinif mühitinə uyğunlaşdırmaq.** Müəllimlərin təlim ehtiyaclarınının müəyyənləşdirilməsi üçün sinifləri müşahidə edin və müəllimlərlə keçirilən sorğuların nəticələrindən əldə olunan məlumatlardan istifadə edin. Beləliklə, bu onların ehtiyaclarının öyrənilməsində daha səmərəli olacaqdır.

**2-ci strategiya**

**Müəllimlərin iştiraki ilə bağlı əsaslı qərarlar qəbul etməsi üçün MPİ-nin məqsədlərini və səmərəliliyini aydın şəkildə bəyan etmək.** Müəllimlərin iştirak etmək istəyini məhdudlaşdıra və ya buna təsir edə biləcək məlumatlarla bağlı maneələri aradan qaldırmaq üçün müəllimlər tərəfindən üstünlük verilən kommunikasiya əlaqələrindən istifadə edin. **MPİ**-in məqsədləri, uyğunluğu, maddi-texniki təminatı və təşviqləri barədə məlumatın olmaması və ya düzgün məlumatın verilməməsi müəllimlərin qərarlarına mənfi təsir göstərə bilər.

**3-cü strategiya**

Seçimlərə icazə verilir. Beləliklə, müəllimlər daha çox məlumat əldə etməklə öz inkişaflarını hiss edirlər. Yalnız proqramın məzmununu deyil, həm də hansı şəraitdə və nə zaman keçiriləcəyi haqqında təklif verilməsi prosesində iştirak müəllimlərin öyrənmə həvəsini artıra bilər.

**2-ci mərhələ: Yeni bacarıqlar və biliyin əldə edilməsi**

**4-cü strategiya**

**Müəllimləri təcrübi imkanlarla təmin etmək.** Səmərəli təcrübələrin modelləşdirilməsini, müəllimlərin təlim prosesini təkmilləşdirmək üçün praktiki istifadə, məqsədli təcrübə, düşünmə və sorğu üçün imkanların yaradılmasını əhatə edən təcrübi öyrənmə strategiyalarını nəzərə alın.

**5-ci strategiya**

**Müəllimləri öz səriştələrini artıra bilməsi üçün mövcud imkanlarla təmin etmək.** Fərdi yanaşmada olduğu kimi, MPİ üzrə xüsusi bacarıq və üzləşə biləcəyi problemləri müəyyənləşdirmək üçün mövcud məlumatlardan istifadə motivasiyaya kömək edə bilər. Məqsədyönlü təlim və təcrübə eyni vaxtda bir neçə məlumatı öyrənməkdə müəllimlərə daha yaxşı kömək edir.

**6-cı strategiya**

**Müəllimlərdə müsbət emosiyalar formalaşdırıla bilməsi üçün onların sosial və emosional öyrənmə (SEÖ) ehtiyaclarını təmin etmək.** Müəllimlərin **sosial və emosional öyrənmə (SEÖ)** üzrə mövcud tələblərə



cavab verən təcrübələrini nəzərə alın, bu məlumatlardan məqsədyönlü və səmərəli istifadə edin. Müəllimlər onların motivasiyasına, istəklərinə, hətta yeni bacarıqları öyrənmək və mənimsəmək qabiliyyətinə mane ola biləcək mənfi emosiyalar, stress yaşaya bilər.

**3-cü mərhələ: MPİ təlimlərinin tətbiqi**

**7-ci strategiya**

**Bu təlimlər həyata keçirilərkən mütəmadi olaraq rəy bildirin ki, müəllimlər dəstəkləndiyini hiss etsinlər və əzmlə çalışsınlar.** Məsləhətçilər, təlimçilər tərəfindən şəxsən və ya məsafədən təqdim olunan məlumat və rəylər müəllimlərdə həvəsləndirməni (motivasiyanı) təmin edə bilər. Tədqiqatlar göstərir ki, məlumatlı və səriştəli müşahidəçilərdən rəy almaq müəllimlərə təlim prosesini uğurla həyata keçirməyə kömək edə bilər.

**8-ci strategiya**

**Müəllimlərin əlaqə qura bilmələri üçün əməkdaşlıq imkanları ilə təmin etmək.** Müəllimlərin öyrənməsi və inkişafı üçün fərdi, kiçik, rəsmi və qeyri-rəsmi, əyani və ya virtual təcrübə qrupları formalaşdırmaq lazımdır. Müəllimlər yeni proqramlara etimad etmək, təlim təcrübələrində yenilikləri tətbiq etmək üçün mövcud nəticələri görməlidirlər.

**9-cu strategiya**

**Müəllimləri fəaliyyəti və inkişafı üçün davamlı imkanlarla təmin etmək.** Davamlı dəstəyin göstərilməsinə seminarlar, təlim sessiyaları və ya onlayn platformalarda iştirak daxildir. Təlimlərdə müəllimlərin iştirakını genişləndirmək üçün təlimatları və dərs planları kimi dəstəkləyici materiallardan istifadə etmək imkanlarını da nəzərə alın.

*Mənbə: Designing TPD programs to overcome motivational barriers: 10 strategies https://blogs.worldbank.org/education/designing-tpd-programs-overcome-motivational-barriers-10-strategies-0*





**10-cu strategiya**

**MPİ təlimlərinin uğurlu tətbiqi üçün müəllimləri tanıyın və həvəsləndirin ki, onlar nailiyyət əldə edə bilsinlər. MPİ**-ni karyera inkişafı, müəllimin peşə standartları ilə uyğunlaşdırın, sertifikatlarla təmin edin və nailiyyətləri qeydə alın. Müəllimlər çox vaxt **MPİ**-də öyrəndiklərini tətbiq etmək niyyətində olmurlar. Çünki onların fəaliyyətləri tanınmır və karyera yüksəlişi üzrə imkanları artıran şərait yaradılmır.



# Məktəbəqədər Təhsildə Müəllimlərin Sorğusu (STEPP) layihəsi

UNESCO tərəfindən 2016–2019-cu illərdə yeddi ölkənin: Dominikan Respublikası, Qana, İndoneziya, Namibiya, Filippin, Toqo və Vyetnamın iştirakı ilə Məktəbəqədər Təhsildə Müəllimlərin Sorğusu (STEPP) layihəsi keçirilmişdir. STEPP layihəsinin 1-ci mərhələsindən əldə edilmiş nailiyyətlərin və məlumatların əks olunduğu hesabat hazırlanmışdır. Bu hesabatda lahiyənin 1-ci mərhələsi olaraq, pilot tədqiqat və sahə (yerlərdə) sınaq təcrübəsinin işlənib hazırlanmasından bəhs olunur. Layihə alətlərin hazırlanması və tətbiqi təhsil üzrə Avstraliya Şurasının (ACER) texniki dəstəyinə əsaslanır. Layihə həmçinin OECD, Education İnternational, BƏT, OMEP və UNICEF kimi beynəlxalq tərəfdaşlarla əməkdaşlığı da əhatə edir. Məktəbəqədər Təhsildə Müəllimlərin Sorğusu (STEPP) Məktəbəqədər təhsil müəllimlərindən, mərkəz rəhbərlərindən məktəbəqədər təhsilin keyfiyyətinə təsir göstərən məlumatların toplanması üçün nəzərdə tutulmuş aşağı və orta gəlirli ölkələri əhatə edən ilk beynəlxalq tədqiqatdır. STEPP peşə və təlimin inkişafı, pedaqogika və peşə təcrübəsi, iş şəraiti və ECCE-də kadrların peşəkar inkişafı kimi sahələri əhatə edir. 2016-cı ildə işə salınan STEPP erkən uşaqlıq dövrü qayğısı və təhsili (ECCE) üzrə Dayanıqlı İnkişaf Məqsədi (SDG) 4.2 hədəfinin həyata keçirilməsini dəstəkləyən İƏİT (OECD) ilə UNESCO-nun birgə təşəbbüsüdür. STEPP-in birinci mərhələsinin ilk addımı STEPP çərçivəsinin nəzərdən keçirilməsi, reytinq tapşırıqlarının sənədləri və sorğu vərəqələrinin tərtib edilməsindən ibarət idi.

STEPP-in konseptual çərçivə işi belə bir fərziyyə irəli sürmüşdür ki, Struktur keyfiyyət amilləri müəllimin səriştəsinə əhəmiyyətli təsir göstərir və bu da öz növbəsində keyfiyyət amillərinə, həmçinin tədrisin nəticələrinə təsir edir. Bu modelin 10 əsas mövzusu var və onlar aşağıdakı diaqramda vurğulanır.








STEPP alətləri kağız üzərində aparılan 3 növ sorğu vərəqlərindən ibarətdir:

1) Məktəbəqədər təhsil müəssisəsinin işçiləri üçün sorğu;
2) Məktəbəqədər təhsil mərkəzlərinin rəhbərləri üçün sorğu;
3) Kiçik məktəbəqədər təhsil mərkəzlərində inzibati, idarəetmə və pedaqoji vəzifələr də daxil olmaqla, məktəbəqədər təhsil müəssisəsinin rəhbər heyətini əhatə edən ümumiləşdirilmiş sorğu.

Hesabatda STEPP-də iştirak edən ölkələrin Erkən uşaq təhsili ilə bağlı məlumatları təqdim olunur, çünki lahiyədə iştirak edən ölkələrin Erkən uşaqlıq dövrü təhsili araşdırılıb.

**Karib dənizi ölkələri** - Bu bölgədəki Erkən uşaqlıq dövrü təhsili (ECCE) proqramları, adətən, 2 yaşa qədər və 3 yaşından ibtidai təhsilə qədər 2 inkişaf mərhələsində olan uşaqları hədəfləyir.

**Dominikan Respublikası** - Erkən uşaqlıq dövrü təhsili 0-6 yaşa qədər olan təhsil kimi müəyyən edilir. Hərtərəfli Erkən Uşaqlıq Baxımı üzrə Milli İnstitutu 0-2 yaşlı uşaqlar üçün erkən stimullaşdırma və 3-4 yaşlı uşaqlar üçün isə erkən təhsildən ibarət proqramlar hazırlayır. Bu proqramlara sağlamlıq və qidalanma monitorinqi, valideynlik dəstəyi, xüsusi təhsil ehtiyaclarının aşkar edilməsi kimi bu və digər komponentlər daxildir.

**Afrika** - Afrika ölkələrinin əksəriyyətində rəsmi məktəbəqədər təhsil müəssisələri 4-6 yaşlı uşaqlara xidmət göstərsə də, regionda qeydiyyat nisbəti təxminən 10%-dən azdır.

**Qana** - 2004-cü ildə dərc edilmiş Milli Erkən Uşaqlığa Baxım və İnkişaf Siyasəti bir sıra məqsədləri müəyyən etmişdir. Bu məqsədlərə çatmaq üçün Qana 2007-ci ildə 4 və 5 yaşlılar üçün məktəbəqədər təhsili universallaşdıran ilk Sub-Sahara Afrika ölkəsi oldu. 2005-ci ildə göstəricisi 60% olan, 14400-dən çox dövlət məktəbəqədər təhsil müəssisəsi və 8000 özəl məktəbəqədər təhsil müəssisəsi ilə Qana 2016-cı ildə 117%-ə yüksəldi və bununla da regionda Erkən uşaqlıq dövrü təhsilinə ən yüksək qeydiyyat göstəricilərindən birinə nail oldu. Buraya Erkən uşaqlıq dövrü təhsili



proqramına 4-5 yaşlılar üçün uşaq bağçaları, 6 aydan 5 yaşa qədər uşaqlar üçün qayğı mərkəzləri, 0-3 yaşlılar üçün isə özəl və dövlət sektorunda ailə gündüz qayğı mərkəzləri daxildir.

**Namibiya** - Hesabatda qeyd olunur ki, bu ölkədə ibtidai təhsil məcburidir və 6 yaşından başlayır. 1 illik Məktəbəqədər təhsil isə 5-6 yaşlı uşaqlar üçün nəzərdə tutulur. 2018-ci ildə məktəbəqədər təhsil üzrə ümumi qəbul nisbəti 34,20% təşkil edib.

**Toqo** - Erkən uşaqlıq dövrü təhsili proqramına 3-5 yaşlılar üçün həm dövlət, həm də özəl məktəbəqədər təhsil müəssisələri, kənd yerlərində icma strukturları (UNİCEF tərəfindən hazırlanmış erkən uşaqlıq inkişaf mərkəzləri daxil olmaqla), 4 aydan 3 yaşa qədər olan uşaqlar üçün bağçalar və ya uşaq baxım mərkəzləri daxildir. Erkən uşaqlıq İnkişafı ölkənin 2014-2025-ci illər üçün Təhsil Sektoru Planında ilk alt məqsəd kimi göstərilir. Dövlət və icma məktəblərində məktəbəqədər təhsil pulsuzdur.

**Cənub-Şərqi Asiya: Vyetnam** - Müxtəlif Erkən uşaqlıq dövrü təhsilinə 3 aydan 6 yaşa qədər uşaqlara xidmət göstərən məktəbəqədər təhsil müəssisələri, 3-6 yaş arası uşaq bağçası və 3 aydan 36 aya qədər olan uşaqlar üçün dayə xidməti daxildir. 2010-cu ildə Vyetnam hökuməti 2010-2015-ci illər üçün bütün 5 yaşlı uşaqları hədəf alan erkən uşaqlıq təhsilinin universallaşdırılmasını təsdiqlədi. Bu da uşaqların ibtidai məktəbə başlamazdan əvvəl il ərzində təhsilə, məktəbə tam hazırlanmasını təmin edir. Nəticədə Vyetnam məktəbəqədər təhsildə çox yüksək qeydiyyat göstəricilərinə nail olmuşdur. 2018-ci ildə məktəbəqədər təhsildə ümumi qəbul səviyyəsi 100,23% təşkil edib.

**İndoneziya** - Hesabatda bildirilir ki, 2018-ci ildə 3-6 yaşlı erkən uşaqlıq təhsili və qayğı xidmətlərində ümumi qəbul nisbəti 74,28% təşkil edib.

**Fillipin** - Erkən Uşaqlıq dövründə təhsil sistemi 0-4 yaş arası uşaqların sağlamlıq, qidalanma, erkən təhsil və sosial xidmətlərin tam spektrinə aiddir. 0-4 yaşlı uşaqların inkişafı və təhsilinə Erkən Uşaqlıq Baxımı və İnkişaf Şurası məsuliyyət daşıyır. Təhsil Departamenti isə 5-8 yaşlı uşaqların təhsili üçün cavabdehdir.

Erkən uşaqlıq dövründə qayğı və təhsil çox vacibdir, çünki o, ictimai məqsədlərə və həmçinin şəxsi məqsədlərə çatmağa kömək edir. Hər şeydən əvvəl, təhsilə eyni səviyyədə başladıqları üçün mənşəyindən asılı olmayaraq, bütün uşaqlara bərabərlik təmin edilməlidir. Erkən uşaqlıq dövrü təhsilin məqsədlərinə nail olmaq üçün ixtisaslı kadrlar vacibdir. Beləliklə, həm ictimai, həm də şəxsi məqsədlərə nail olmaq üçün səriştəli və pedaqoji-psixoloji biliyə malik müəllim hazırlığına ehtiyac vardır. Bunun səbəbi yaxşı təlim keçmiş müəllimin Erkən uşaqlıq təhsili dövründə uşaqların inkişaf nəticələrinə müsbət təsir göstərməsidir. Bütün bu qeyd olunanlarla yanaşı, erkən uşaqlıq dövrü təhsili peşəsində boşluq var.

**STEPP-erkən uşaqlıq dövrü təhsilinin inkişafı və müəllim kadrların hazırlanması istiqamətində tədqiqat aparıldıqdan sonra gələnən nəticələr aşağıdakı kimi olmuşdur.**

Hesabatda qeyd olunur ki, aparılan sahə sınağının təcrübəsi, nəticələri müsbət olub. Həmçinin layihənin 2-ci mərhələsində aparılacaq əsas sorğunun məzmunu, metodologiyasının dizaynı üçün faydalı fikirlər və tövsiyələr verilib. Bütün iştirakçı ölkələr sorğunun ECCE nümayəndələri tərəfindən qəbul edilən işin vəziyyətini başa düşmək, təkmilləşdirmə tədbirlərinin işlənib hazırlanmasına rəhbərlik etmək üçün təlimin, iş şəraitinin və təcrübələrin dəyərli vasitə olduğunu bildiriblər.

Alətlərlə bağlı sahə sınaqlarının nəticələri baxımından, mərkəz rəhbərinin sorğu vərəqəsi iştirakçı ölkələrdə yaxşı anlaşıldı və yalnız bəzi hallarda iştirakçılar ən yüksək təhsil səviyyəsi ilə bağlı suala cavab verməyə çalışarkən çətinliklərlə qarşılaşdıqlarını qeyd etmişlər.

Rəhbər işçilərin sorğusuna gəlincə isə iştirakçılar əhatə olunan mövzulardan razı qalıblar. Bununla belə, onlardan bəziləri, əsasən tərcümə/uyğunlaşma məhdudiyyətlərinə görə sorğu vərəqəsində yer alan “status” və “icma” kimi bəzi anlayışların daha yaxşı izah olunmasına ehtiyac olduğunu bildirmişlər.

**Proseslərlə bağlı sahə sınaqlarının nəticələrinə gəldikdə isə, əsas sorğu üçün tövsiyələrə aşağıdakılar daxildir:**

- sınaq müddətinin uzadılması;
- anketin onlayn idarə edilməsi imkanının tətbiqi;
- STEPP Milli Komandaları, sorğuda iştirak edən məktəbəqədər təhsil sahədəki inkişafa nəzarət etmək, problemləri qeyd etmək və idarə etmək üçün keyfiyyət monitorinqləri arasında müntəzəm əlaqə yaratmaq;
- müvəffəqiyyəti təmin etmək məqsədilə sorğunun keçirilməsi üçün strateji vaxt seçimi;
- onlayn təlim imkanları və dəstəyin təmin edilməsi ilə yanaşı, iştirakçı ölkələr tərəfindən sorğu mərhələlərinin hərtərəfli başa düşülməsini təmin etmək üçün üzbəüz təlim imkanlarının təmin edilməsi.

Hesabatdan belə nəticəyə gəlmək olar ki, bu sorğu vasitəsilə əksər ölkələr qısa müddət ərzində böyük irəliləyiş əldə edə biləcəklər. UNESCO layihənin birinci mərhələsinin nəticəsinə əsaslanaraq, hazırda Milli Reprezentativ nümunələrdən istifadə etməklə, əsas tədqiqatın hazırlanmasından və aparılmasından ibarət 2-ci mərhələni planlaşdırır.



*Mənbə: Ahmed, S. K., Kaga, Y., & Walker, M. (2020). Survey of Teachers in Pre-primary Education (STEPP): Lessons from the pilot study and field trial of international survey instruments. UNESCO Publishing.*

Beynəlxalq Təhsil İcmalı
APREL 2022

Beynəlxalq Təhsil İcmalı
APREL 2022

# Təhsildə Ölçmə və Qiymətləndirmə: Bolqarıstan

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən Bolqarıstanın təhsil sisteminin qiymətləndirməsi və qiymətləndirmə meyarları çərçivəsində öyrənmənin təkmilləşdirilməsinə mane ola biləcək boşluqlar araşdırılaraq hesabat hazırlanmışdır. Hesabatda bildirilir ki, son 5 il ərzində Bolqarıstan təhsil sisteminin keyfiyyətini yaxşılaşdırmaq və bütün şagirdlərə bərabər imkanlar yaratmaq üçün bir sıra islahatlar həyata keçirilmişdir.

2016-cı ildə Bolqarıstan şagirdləri qiymətləndirmək üçün yeni çərçivə olan Məktəb və Məktəbəqədər Təhsildə Qiymətləndirmə Mərkəzi yaratmış, şagirdə yönəlik, səriştə əsaslı kurikulumun tətbiqinə başlayan mühüm dəyişiklikləri təqdim etmişdir. Ölkədə yeni kurikulum, müəllim peşəsinin inkişafı və yeni müəllimlərin cəlb edilməsi prosesi, yeni məktəb maliyyələşdirmə modeli, ikili peşə təhsili və təlimi (PTT) sistemi, məcburi məktəbəqədər təhsil sahəsində islahatlar həyata keçirilmişdir. Lakin bütün bu islahatlara baxmayaraq, Bolqarıstan hələ də yüksək yoxsulluq və sosial-iqtisadi bərabərsizliklərlə üzləşməyə davam edir. Bu da ölkənin təhsil sisteminin regiondakı digər ölkələrlə müqayisədə Avropa standartlarına uyğunlaşmasına mane olur. Belə ki, Bolqarıstanda şagirdlərin 47%-i 2018-ci ildə PISA Beynəlxalq şagirdlər nailiyyətlərinin qiymətləndirilməsi proqramında oxu bacarıqlarının qiymətləndirməsinin ilkin mərhələsi üzrə uğur əldə edə bilməyib. Bolqarıstanın Məktəbəqədər və Məktəb Təhsildə Qiymətləndirmə Mərkəzi (2016) yeni səriştələrə əsaslanan kurikulum, yeni öyrənmə standartları, diaqnostik qiymətləndirmənin istifadəsi və keyfiyyət göstəricilərinin həyata keçirilməsi daxil olmaqla, şagirdlərin qiymətləndirilməsinə daha formativ yanaşmalar təqdim etmişdir. Bununla belə, bu yanaşmalar öyrənməni gücləndirmək imkanına sahib olsa da, məktəbdə və sinifdə qiymətləndirmə təcrübələrində dəyişikliklər ləng həyata keçirilir. Hesabatda Bolqarıstanın qiymətləndirmədə tədris və öyrənməni təkmilləşdirmək üçün bir vasitə kimi istifadə edə biləcəyi bir sıra aşağıdakı istiqamətlər üzrə tövsiyələr qeyd olunmuşdur.

**1. Şagird qiymətləndirməsini öyrənmənin tərkib hissəsinə çevirmək.**
Hesabatda qeyd edilir ki, qiymətləndirmə və qiymətləndirmə siyasətləri bütün təhsil sistemdə təkmilləşdirməni təmin edir.

Bolqarıstan 2016-cı ildə keyfiyyətli qiymətləndirmə və siniflərdə diaqnostik qiymətləndirmələr kimi müasir şagird qiymətləndirmə təcrübələrini əhatə edən yeni şagird qiymətləndirmə çərçivəsini təqdim etmişdir. Bolqarıstanda mərkəzləşdirilmiş qaydada hazırlanmış test tapşırıqlarına, ümummilli qiymətləndirmə və imtahanlara İxtisaslaşmış qurum olan Məktəbəqədər və Məktəb Təhsilində Qiymətləndirmə Mərkəzi (bundan sonra Qiymətləndirmə Mərkəzi) cavabdehdir. Son dövrlərdə Qiymətləndirmə Mərkəzi ali təhsilə qəbulla bağlı səlahiyyətlərə malik olan Dövlət Bazasının təşkil etdiyi buraxılış imtahanlarının etibarlılığının və düzgünlüyünün təkmilləşdirilməsi üzərində işləyir. Məktəblərdə şagird qiymətləndirməsinin yeni üsullarını təcrübədə tətbiq etmək üçün təlimatın, dəstəyin olmaması və sinif əsaslı qiymətləndirmənin ilk növbədə summativ xarakter daşıması hesabatda öz əksini tapır. Bolqarıstan təhsil sistemi şagirdin qiymətləndirilməsi ilə bağlı ümumi anlayışı öyrənmənin mərkəzi hesab etməli, müəllimlərin formativ qiymətləndirmədən istifadə etmək bacarıqlarını inkişaf etdirməli, tam orta təhsilə qəbulu təkmilləşdirməlidir.

**2. Müəllimlik peşəsinə investisiya qoyuluşunun strateji olmasını təmin etmək keyfiyyətin yüksəldilməsinə gətirib çıxarır.**
Bolqarıstan müəllim peşəsini də inkişaf etdirmək və yeni pedaqoji fəaliyyətə başlayan müəllimləri cəlb etmək üçün bir sıra tədbirləri həyata keçirir. Məsələn, müəllimlik peşəsinin yeni standartlarını, peşəkar inkişafla əlaqəli müəllim karyera strukturunu və ilkin müəllim hazırlığı təhsilinin proqramları üçün məzmun təqdim etmişdir. Ölkədə həmçinin müəllimlərin qiymətləndirilməsi üçün müəyyən edilmiş mövcud çərçivə hazırda yenidən təkmilləşdirilir. Lakin bu sahədə də çətinliklər tam olaraq aradan qaldırılmamışdır. Bu səbəbdən də müəllim hazırlığı istiqamətində islahatlar daha yaxşı əlaqələndirilməlidir. Məsələn, qiymətləndirmə proseslərini birləşdirməklə və onları müəllimlik peşəsinin yeni standartlara uyğunlaşdırmaqla, müəllimlərə öz təcrübələrini təkmilləşdirmək üçün kömək etməyə yönəldilməsi təmin edilməlidir. Bolqarıstan qiymətləndirmə proseslərinin obyektiv, ardıcıl olmasını və müəllimlərin öz təcrübələrini təkmilləşdirmək məqsədilə mütəmadi rəy almasını təmin etmək üçün çalışmalıdır. Bundan əlavə, yeni pedaqoji fəaliyyətə başlayan müəllimlərə olan tələbatı ödəmək üçün məlumatlara əsaslanan planlaşdırma və cari müəllim təhsili kurikulumları, habelə işə qəbulla bağlı dəstək tədbirləri ilə onların inkişafına kömək edə bilər. Ölkə məktəbdə öyrənmə təşəbbüslərini dəstəkləməklə, keyfiyyət təminatını gücləndirməklə və ixtisasların təmin edilməsində yol göstəricilərini gücləndirməklə müəllimlərin peşəkarlığının inkişafını təmin edə bilər.

**3. Məktəb keyfiyyəti haqqında ümumi anlayışın yaradılması və məktəblərin öz inkişaflarına rəhbərlik etmələrinə kömək etmək.**
Hesabatda bildirilir ki, Bolqarıstanda Mərkəzi Məktəb Müfəttişliyi, Milli Təhsil Müfəttişliyi (bundan sonra Müfəttişlik) olmaqla, yeni məktəb qiymətləndirmə sistemi yaradılmışdır. Müfəttişlik, yeni məktəb modelinin keyfiyyət standartlarını tətbiq etməklə öz səylərini aşağı nəticə göstərən məktəblərə yönəltmək qərarına gəlmişdir. Lakin, məlum olmuşdur ki, təhsil sisteminin nümayəndələri arasında hələ də məktəb keyfiyyəti ilə bağlı anlayış yoxdur və Mərkəzi Məktəb Müfəttişliyinə bağlı Regional Təhsil Şöbəsinin rolları aydın deyil. Həmçinin, həm Təhsil Şöbəsinin, həm də Müfəttişliyin kifayət qədər resurslara malik olmaması, səlahiyyətlərin effektiv şəkildə yerinə yetirilməsinə mane olur. Eyni zamanda nə qiymətləndirmənin aparılması, nə də məktəbin təkmilləşdirilməsinin planlaşdırılması üzrə məktəb rəhbərləri heç bir təlim keçmirlər. Bu baxımdan, Bolqarıstan yeni məktəb qiymətləndirmə çərçivəsi məktəblərə öz inkişaflarına cavabdeh olmağı və milli təhsil məqsədləri istiqamətində görüləcək işləri mümkün qədər sürətləndirməyi təmin etməlidir. Buna nail olmaq üçün Bolqarıstan, keyfiyyət standartlarına cavab verən məktəblərin təcrübələrini nümayiş etdirməklə, məktəb keyfiyyəti ilə bağlı ümumi anlayış yaratmağa çalışmalıdır. Ölkə məktəblərdə özünüqiymətləndirməni məcburi etməlidir. Məsələn, məktəbləri özünüqiymətləndirmə kitabçası və aparıcı məktəblərin təcrübəsini öyrənmək üçün məlumatlarla təmin etdirməlidir.

**4. Milli təhsil məqsədlərinə nail ola biləcək sistem səviyyəsində monitorinq çərçivəsinin qurulması.**
Bolqarıstan qiymətləndirmələrə rəhbərlik etmək üçün obyektiv, aydın və uzunmüddətli təhsil məqsədləri müəyyən etmişdir. O, həmçinin mütəmadi olaraq beynəlxalq qiymətləndirmələrdə iştirak edir. Bu istiqamətdə Qiymətləndirmə siyasətinə uyğun olaraq fəaliyyəti izləmək və qiymətləndirmək üçün təlim nəticələrinə dair məlumatları təqdim edən illik milli qiymətləndirmə aparır. Nazirlik Təhsilin İdarə Edilməsi İnformasiya Sisteminin modernləşdirilməsinə xeyli sərmayə qoymuşdur. Bu da həm təhsil məlumatlarının keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağı, həm də onların tərtibi yükünü azaltmağı hədəfləyir. Bu səbəbdən Bolqarıstan sistemli məsələlər üzrə tədqiqatlar aparmalı və modernləşdirilmiş Təhsilin İdarə Edilməsi İnformasiya Sisteminin daha dərin, müntəzəm təhlili üçün yeni imkanlar təqdim etməlidir. Eyni zamanda, milli-beynəlxalq qiymətləndirmə (NEA) hazırda sistemin inkişafı və həyata keçirilməsi ilə bağlı problemlər səbəbindən təhsilin monitorinqi üçün keyfiyyətli məlumatlar təqdim edə bilmir.

Qısa müddətdə Bolqarıstan özünün yeni Təhsilin İdarə Edilməsi İnformasiya Sisteminin həyata keçirilməsində qalan boşluqları aradan qaldırmağa davam etməlidir. Sistemin fəaliyyəti haqqında əsas maraqlı tərəflərə və ictimaiyyətə müntəzəm, hərtərəfli hesabat verməyi nəzərdən keçirməlidir. Eyni zamanda, Bolqarıstan öz monitorinqini, formalaşdırıcı potensialını gücləndirmək üçün milli xarici qiymətləndirmənin dizaynını və istifadəsini təkmilləşdirməlidir.

*Mənbə:Guthrie, C., et al. (2022), OECD Reviews of Evaluation and Assessment in Education: Bulgaria, OECD Reviews of Evaluation and Assessment in Education, OECD Publishing, Paris, https://doi.org/10.1787/57f2fb43-en.*